atb

# “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti
# KOTİROVKA SORĞUSU ELAN EDİR

Kotirovka sorğusunun adı: **“Azər-Türk Bank” ASC tərəfindən Bankın Baş ofisində və filiallarında yerləşən kondisionerlərin və kombi sistemlərinin texniki servis xidmətinin satınalınması.**

“Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti ilə əməkdaşlıq etmək üçün saytda yerləşdirilmiş Məlumat Sorğusunun doldurulması və qeyd edilən elektron ünvana göndərilməsi mütləqdir. Yalnız bundan sonra “etibarlı təchizatçılar siyahısı”-na daxil olmaq mümkündür. Nəzərinizə çatdırırıq ki, “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti bütün satınalma müqavilələrini yalnız daxili “etibarlı təchizatçılar siyahısı”-nda olan şirkət və fərdi sahibkarlarla bağlayacaqdır.

Kotirovka sorğusunun elan tarixi: **22.07.2025**

Kotirovka sorğusunda iştirak etmək istəyən iddiaçılar öz qiymət kotirovkalarını qapalı zərfdə imzalanmış və ya möhürlənmiş şəkildə Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi 85 ünvanında yerləşən “Azər-Türk Bank” ASC-nin Baş ofisinə **31 iyul 2025-ci il saat 17:00-a** qədər təqdim etməlidirlər.

**Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.**

Kotirovka sorğusu proseduru üzrə zərflərin açılışı **01 avqust 2025-ci il saat 11:00-də** keçiriləcəkdir.

İddiaçılar sözügedən sahə üzrə ixtisas uyğunluğuna malik olmalıdırlar.

**Kotirovka sorğusunda iştirak etmək istəyən iddiaçılar aşağıda qeyd edilənləri diqqət yetirməlidirlər:**

1. Kotirovka sorğusunda iştirak etmək istəyən iddiaçılar iştirak niyyətini bildirmək üçün tender@atb.az e-poçt ünvanına şirkətin adını qeyd etməklə **“iştirakımı təsdiq edirəm”** mətnini göndərməlidir.
2. Göndərilən müraciətdə e-poçtun “subject” hissəsində - **“Kondisionerlərin və kombi sistemlərinin texniki servis xidməti”nin satınalınması** - qeyd edilməlidir.
3. İddiaçının dövlət reyestrindən çıxarış sənədi qeyd olunan e-poçt ünvanlarına əlavə edilərək təqdim edilməlidir.

İddiaçıların imzalanmış və ya möhürlənmiş şəkildə qapalı zərfdə təqdim etdiyi qiymət kotirovkaları, nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər də daxil edilməklə, manatla göstərilməlidir.

Kotirovka təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı **30 (otuz) bank günü** təşkil etməlidir.

Kotirovka sorğusu ilə bağlı əlavə məlumat almaq üçün elektron poçt **tender@atb.az** müraciət edə bilərsiniz.

**Satınalma Komissiyası**